# Festivalla bağlı görkəmli musiqi xadimləri və turistlərin rəyləri

***14 gün davam edən V Qəbələ Beynəlxalq Musiqi Festivalına dünyada tanınan, çox şöhrətli musiqi xadimləri, habelə bir sıra beynəlxalq festivalların təmsilçiləri iştirak etmişlər. Onlar bu festival haqqında mətbuatda və müxtəlif telekanallarda çıxışlar edərək rəy və təkliflərini, mülahizələrini, təəssüratlarını söyləmişlər.***

***Aşağıda bu rəy və təəssüratların bəzilərini dərc edirik.***

**Mənsum İbrahimov: Qəbələ Beynəlxalq Musiqi Festivalından zövq almamaq mümkün deyildir.**



Festivalın iştirakçısı, görkəmli xanəndə, xalq artisti Mənsum İbrahimov demişdir ki, muğam axşamında gənc və istedadlı xanəndələr Aytən Məhərrəmovanın, Arzu Əliyevanın, Azərbaycan Milli Konservatoriyasının dosentləri, əməkdar artistlər Elçin Həşimovun (tar) və Elnur Əhmədovun (kamança) ifalarında təqdim etdiyimiz muğam və xalq mahnıları ilə həm öz tamaşaçılarımıza, həm də xaricdən gələn qonaqlara Azərbaycan musiqisinin hər zaman insanları heyrətləndirdiyini göstərə bildik. Festival çərçivəsində bizim muğamlarımızın tanıdılması üçün geniş imkanlar yaradılmışdır.

**Kelsi RAYSTER: «Dünyanın heç bir ölkəsində muğama Azərbaycandakı qədər diqqət və qayğı göstərilmir»**

Bu sözləri V Qəbələ



Beynəlxalq Musiqi Festivalını izləmək üçün ABŞ-dan gəlmiş turist Kelsi Rayster müsahibəsində demişdir. O, bildirmişdir ki, bu festival ümumilikdə incəsənətin inkişafında müstəsna rol oynayacaqdır.

Tarixçi olduğunu deyən qonaq həmçinin bu festivalın onun gələcəkdə yazacağı dissertasiyaya mühüm töhfə verəcəyini vurğulamışdır. O, qeyd etmişdir ki, Azərbaycana bundan çox-çox əvvəl səyahət etmək arzusunda idi. V Qəbələ Beynəlxalq Musiqi Festivalı barədə dünya kanallarında yayımlanan anonsları gördükdə isə bu möhtəşəm incəsənət bayramında iştirak etmək fikrinə düşmüş və istəyini reallaşdırmışdır.

Kelsi Rayster festivaldan sonra daha bir neçə gün Azərbaycanda qalacağını və ölkəmizlə yaxından tanış olacağını bildirmişdir.

**Aleksandr FAYMON: «Təbiət qoynunda konsert vermək musiqiçiyə unudulmaz hisslər yaşadır»**



Bu sözləri festivalın iştirakçısı, Yerusəlim Simfonik Orkestrinin üzvü Aleksandr Faymon müsahibəsində demişdir.

Festivalda iştirakından məmnunluğunu dilə gətirən Aleksandr Faymon demişdir: «Azərbaycan durmadan inkişaf edən ölkədir. Ölkənizdə belə füsunkar məkanın olduğunu bilmirdim. Mən 14 il əvvəl Azərbaycanda olmuşdum. Qəbələyə isə ilk gəlişimdir. Təklif olarsa, yenə də böyük məmnuniyyətlə ölkənizə gəlmək istəyərəm. Buranın insanları çox səmimi və qonaqpərvərdirlər. Festivalda sizin musiqiçilərlə tanış oldum, yeni dostlar qazandım. Bu möhtəşəm sənət bayramının təşkilatçılığı yüksək səviyyədədir».

**Ayman MUSAXACAYEVA: «Qəbələ festivalı geniş tamaşaçı auditoriyasına əsl incəsənət bayramı yaşadır»**

Qazaxıstan İncəsə-



nət Universitetinin rektoru, xalq artisti, Dövlət mükafatı laureatı, Beynəlxalq Yaradıcılıq Akademiyasının akademiki, tanınmış skripkaçı Ayman Musaxacayeva müsahibəsində demişdir: «Bu günlər Qəbələdə dünyanın məşhur musiqi xadimlərinin konsertləri böyük tamaşaçı auditoriyasına əsl incəsənət bayramı yaşadır».

Bakıda bir neçə dəfə konsert verdiyini vurğulayan Ayman Musaxacayeva demişdir ki, bu dəfə Bakıda Heydər Əliyev Beynəlxalq Aeroportunda yerə enəndə şəhəri tanımadım. Qəbələyə gəldikdə isə belə kiçik məkanda tikilmiş beşulduzlu mehmanxanalar kompleksi, yaradılmış şərait, qonaqpərvər insanlar və yüksək xidmət məni valeh etdi.

Qəbələ festivalı barədə «Euronews» telekanalında yayımlanan videoçarxlar vasitəsilə məlumatlı olduğunu diqqətə çatdıran Ayman Musaxacayeva bu möhtəşəm sənət bayramında iştirak etdiyi üçün çox şanslı olduğunu da xüsusilə vurğulamışdır.

**Fotolar Səhrab UMUYEVİNDİR.**

# Qəbələ iqtisadiyyatı 2013-cü ilin birinci yarısında

Yola saldığımız 2013-ci ilin birinci yarımilində ölkəmizdə sosial-iqtisadi inkişaf davam etmiş, Azərbaycan regionda lider dövlət olaraq öz mövqeyini xeyli möhkəmləndirmişdir. Ölkəmizin beynəlxalq aləmdə inteqrarasiyası bir qədər də sürətlənmiş, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təminatındakı rolu xeyli artmışdır.

Son on ildə Azərbaycanda ümumi daxili məhsulun həcmi 3 dəfə artmış, yoxsulluq səviyyəsi 49 faizdən 6 faizə enmiş, işsizlik 5,2 faizə düşmüşdür. Azərbaycan iqtisadiyyatı Qlobal Rəqəmlərdə Qabiliyyətlilik İndeksinə görə 46-cı yerdədir və hazırda Cənubi Qafqaz iqtisadiyyatının 75 faizini təşkil edir.

«Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın uğurla yerinə yetirilməsi sahəsində ölkəmizdə bir sıra mühüm tədbirlər həyata keçirilmiş, sosial infrastruktur layihələr yerinə yetirilmiş, yeni istehsal münasibətləri yaradılmış, çoxlu sayda yeni sosial yönümlü obyektlər tikilmiş, geniş miqyaslı quruculuq-abadlıq işləri görülmüşdür.

Ölkəmizin qabaqcıl rayonlarından biri sayılan Qəbələdə də sosial-iqtisadi inkişaf sürətlə inkişaf etmiş, geniş və yaraşıqlı asfalt yollar salınmış, turizmi inkişaf etdirmək məqsədilə çoxlu sayda yeni istirahət mərkəzləri tikilib istifadəyə verilmiş və bunların tikintisi davam edir. Rayonun kənd və qəsəbələrinə yeni qaz xətti çəkilmiş, iqtisadiyyatın əsas sahələri olan sənaye, kənd təsərrüfatı və sosial sahələrdə bütün işlər uğurla icra olunur.

2013-ci ilin birinci yarım ili ərzində iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 93175,1 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da keçən ilin həmin dövründəkindən 1503,3 min manat, yaxud 1,6 faiz azalmışdır.

2013-cü ilin ikinci rübü ərzində keçən ilin müvafiq dövrü ilə müqayisədə ümumi məhsul buraxılışı kənd təsərrüfatında 2271 min manat, yaxud 13.7 faiz, nəqliyyatda 84 min manat, yaxud 5.6 faiz, rabitədə 37 min manat, yaxud 9,8 faiz, ticarətdə 4248 min manat yaxud 10,6 faiz artmış, tikintidə 6911,7 min manat, yaxud 12,2 faiz, sənayedə isə 1231,6 min manat yaxud 15,4 faiz azalma qeydə alınmışdır.

Kənd təsərrüfatında irəliləyiş daha diqqətçəkən olmuşdur. Rayonda keçən ilin payızında 25958 hektar sahədə payızlıq taxıl əkilmişdir. Əkilmiş taxıl sahələrinə payız -qış dövrlərində yüksək keyfiyyətli aqrotexniki qulluq göstərilmişdir.

2013-cü ilin birinci yarım ili ərzində rayonun kənd təsərrüfatı əməkçiləri mal-qaranın qışdan sağ-salamat çıxarılması, əkilmiş payızlıq bitkilərin becərilməsi və yazlıq bitkilər əkininin aparılması üçün aqrotexniki tədbirlərin görülməsində öz daxili imkanlarını tam səfərbərliyə almışdır.

Rayonda mart ayının üçüncü ongünlüyündə yazlıq bitkilər əkininə başlanmış və qısa müddətdə iyul ayının 1-i vəziyyətinə 1085 hektar sahədə kartof, 2095 hektar sahədə tərəvəz, 546 hektar sahədə çoxillik ot olan yonca, 916 hektar sahədə isə birillik ot toxumları əkilmişdir. Başqa sözlə desək, 4442 hektar yazlıq bitkilər əkilmişdir ki, bu da keçən ilin həmin dövrünə nisbətən 25 hektar çoxdur.

2013-cü ilin birinci yarım ili ərzində keçən ilin həmin dövrünə nisbətən iribuynuzlu mal-qaranın sayı 1097 baş, inək və camışların sayı 338 baş, qoyun və keçilərin sayı 366 baş, donuzların sayı 79 baş artmışdır.

Həmin dövrdə ət istehsalı 81 ton, süd istehsalı 2415 ton, yumurta istehsalı 339 min ədədə çıxarılmışdır.

Qeyri-neft sektorunun inkişafı regionlarda sənayenin inkişafı, yeni emal müəssisələrinin yaradılması ilə bilavasitə bağlıdır. 2009-2013-cü illər üçün nəzərdə tutulmuş «Azərbaycan Respublikası regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın təsdiq olunmasında əsas məqsədlərdən biri məhz ölkənin rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdan ibarətdir.

Rayonun sənayesi əsasən meyvə şirələrinin, qida məhsullarının istehsalı, elektrik enerjisi, qazın bölüşdürülməsi, suyun yığılması və paylanması sahələri ilə təmsil olunmuşdur.

**(Ardı 6-cı səhifədə).**